«ƏHMƏD AĞAOĞLU VƏ TÜRK DÜNYASI»
Beynəlxalq elmi konfransın
MATERİALLARI
Bakı, 16 noyabr 2023-cü il

PROCEEDINGS
of International Scientific Conference on
«AHMET AGAOGLU AND THE TURKIC WORLD»
Baku, 16 November 2023

https://doi.org/10.59849/iscaatw.2023.130

Samirə Məmmədli*

ƏHMƏD AĞAOĞLUNUN "SƏRBƏST İNSANLAR ÖLKƏSİNDƏ" ƏSƏRİNİN JANRINA DAİR

Xülasə

Məqalədə Azərbaycan mühacirət nəsrinin mühüm əsərlərindən birinin janr xüsusiyyətləri araşdırılır. Qeyd olunur ki, Əhməd Ağaoğlunun elmi-ədəbi yaradıcılıq sahəsində keçdiyi yol son dərəcə enişli-yoxuşlu və ziddiyyətli olub. Ağaoğlu irsinin tədqiqatçıları bu məsələni onun formalaşdığı mühitlə əlaqələndirirlər. Təbii ki, Ə.Ağaoğlu yaşadığı dövrün ziddiyyətli və burulğanlı mühitində ilk növbədə cəmiyyət və fərd, insan və azadlıq, dövlət və cəmiyyət kimi problemləri dərindən öyrənməyə, bunları öz əsərlərində layiqincə əks etdirməyə çalışmışdır.

Ə.Ağaoğlunun "Sərbəst insanlar ölkəsində" əsəri Azərbaycan mühacirət ədəbiyyatının fəlsəfi ruhunu müəyyən etmək baxımından mühüm əhəmiyyətə malikdir. Ona görə də onun janr spesifikasını müəyyənləşdirməyə ehtiyac var. Azərbaycan mühacirət ədəbiyyatında bu ruhda yazılmış başqa əsər yoxdur. Lakin daha geniş prizmadan baxanda "Sərbəst insanlar ölkəsində" mətni əsası M.F.Axundzadə tərəfindən qoyulan və bir sıra məsələlərin həllində mühüm rol oynayan ənənənin davamıdır.

Əsərin bədii quruluşu həm ədəbi, həm də elmi düşüncə qatlarını ehtiva etdiyi üçün onu sırf traktat və ya sırf bədii nəsr nümunəsi hesab etmək çətindir. Bu tip əsərlər daha çox dövrün son dərəcə mürəkkəb və ziddiyyətli suallarının bədii-fəlsəfi əksidir.

Açar sözlər: Azərbaycan mühacirət nəsri, Əhməd Ağaoğlu, "Sərbəst insanlar ölkəsi", janr, sərhəd vəziyyəti, traktat, roman

* Bakı Dövlət Universiteti Azərbaycan mühacirət ədəbiyyatı və bədii tərcümə elmi tədqiqat laboratoriyasının elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, samiremamedlice@mail.ru

Giriş. Azərbaycan mühacirət nəsri nümunələri arasında Əhməd Ağaoğlunun (1869-1939) "Sərbəst insanlar ölkəsində" əsərinin özünəməxsus yeri var. Müəllif arzuladığı, görmək istədiyi ideal cəmiyyəti təsvir edib. Daha doğrusu, əsarət zəncirindən qurtulan bir türkün həmin cəmiyyətdə öz yerini tapmaq cəhdləri əsərin süjet dinamikasını, onun nüvəsini təşkil edir. Təsvir boyu xəyali demokratik ölkədə yaşamağın min bir çətinliyi ortaya çıxır. Bu əsəri qələmə alana qədər Ə.Ağaoğlu mübarizələrlə dolu çətin bir yol keçmişdi. Siyasi baxışları dərinləşmiş, dövlət, cəmiyyət, demokratiya, azadlıq kimi mühüm anlayışlar haqqında konseptual düşüncəyə malik mütəfəkkir kimi yetişmişdi. Həm Türkiyə Cümhuriyətinin siyasi həyatında yaxından iştirakı, həm də zəngin təcrübəsi bu sahədə qənaətlərini ifadə etmək zərurəti yaratmışdı.

"Sərbəst insanlar ölkəsində" Azərbaycan mühacirət ədəbiyyatının fəlsəfi ruhunu açıqlamaq baxımından çox önəmli əsərdir. Buna görə də onun janr spesifikasını müəyyənləşdirmək ehtiyacı duyulur. Azərbaycan mühacirət ədəbiyyatında bu ruhda qələmə alınmış ikinci bir əsər yoxdur. Ancaq daha geniş baxış bucağından nəzər saldıqda "Sərbəst insanlar ölkəsində" tək görünmür, M.F.Axundzadə ilə əsası qoyulan ənənənin davamı təsiri bağışlayır və janr nöqteyi-nəzərindən bir çox önəmli məsələnin çözülməsində açar rolunu oynayır. Buna görə də bu fəlsəfi-sosioloji ruhlu əsər mühacirət ədəbi irsinin əsas istiqamətlərini səciyyələndirə bilir.

"Sərbəst insanlar ölkəsində" dünya ədəbiyyatı və fəlsəfi fikir müstəvisində də ənənəsi olan bir əsər olduğundan o dövrün Türkiyəsi üçün təsadüfi sayılmamalıdır. İki dünyanı birləşdirən, onların arasındakı "mərz"dən keçən əsər ortaya cavablanması təxirəsalınmaz suallar qoyurdu. Cavabı tapılmış zənn edilən məsələlər də yenidən fikir dartışması müstəvisinə çəkilirdi. Ə.Ağaoğlunun əsəri bu mənada bu gün də aktuallığını saxlayan bir mətndir.

Məsələnin bu şəkildə qoyuluşu, yəni tək bir nümunənin bütöv bir ədəbi irsi səciyyələndirmək, onun fəlsəfi-humanitar, habelə bədii-estetik ruhunu açıb sərgiləmək baxımından oynadığı roldan danışmaq Azərbaycan mühacirət ədəbiyyatını əsas yönləri

ilə nəzərdən keçirmək anlamına gəlir. Bu isə ədəbi nümunənin janrını bəlləməyə, onun xüsusiyyətlərindən söz açmağa imkan verir. Fikrimizcə, məsələnin bu aspektdən araşdırılması ilk növbədə ədəbi-elmi fikir tarixinin öyrənilməsi üçün aktualdır. İkincisi, mühacirət ədəbiyyatı xəzinəsində Ə.Ağaoğlunun yerinin, əsərlərinin oynadığı bədii-estetik funksiyanın müəyyənləşdirilməsinə yardımçı olur Ə.Ağaoğlunun bədii-fəlsəfi nəsri Azərbaycan mühacirət ədəbiyyatının əsas istiqamətlərinin daha dolğun şəkildə fəhm edilməsinə təkan verir. Doğrudan da, bir millətin ədəbiyyatında bəzən bu kimi səciyyəvi proses baş verir: tarixin, ədəbi prosesin hansısa məqamında elə bir nümunə meydana çıxır ki, o, ədəbi prosesin ifadə etmək istədiyi bütün mətləbləri bir əlin ovcunun içinə toplayır, nəticədə ən fərqli istiqamətlərdən nəzər saldıqda həmin nümunə böyük bir dövrün bədii düşüncəsinin ifadəsinə çevrilir. Bizə belə gəlir ki, Ağaoğlunun bədii-fəlsəfi mətninin incələnməsi həm də buna görə aktualdır.

Tədqiqatın məqsədinə Ə.Ağaoğlunun "ədəbi-fəlsəfi nəsr" anlayışı və konsepsiyasını incələmək, konkret olaraq, bu səpkidə yazdığı əsərlərin janrdaxili özəlliyini müəyyənləşdirmək daxildir. Bu məqsədlə sistemli yanaşma araşdırma metodundan istifadə etmişik. Zənnimizcə, bu metodun tətbiqi (ayrı-ayrı komponentlərin bütövə münasibətdə dəyərləndirilməsi-!) son dərəcə mürəkkəb dünyagörüşə və bədii təfəkkürə malik olan Ə.Ağaoğlunun "Sərbəst insanlar ölkəsində" əsərinin janr "kimliyini" dəqiq şəkildə aydınlaşdırmağa dəstək olur. Bu mülahizədən çıxış edib məqalədə onun bədii-fəlsəfi pafoslu əsərlərini yaşadığı dövr və formalaşdığı mühitlə sıx əlaqədə yazılmış nəsr nümunələri hesab edirik.

Əsas hissə. Ə.Ağaoğlunun "Sərbəst insanlar ölkəsində" əsərindən bəhs edərkən onun bir fikir adamı – mütəfəkkir kimi şəxsiyyətini müəyyənləşdirən əsas cizgiləri nəzərə almaq lazımdır. Onun haqqında kitab, məqalə, monoqrafiya qələmə alan, bir alim və publisist kimi bu və ya digər taleyüklü məsələyə münasibətini araşdıran bütün müəlliflər istisnasız olaraq bu şəxsiyyəti formalaşdıran mühitləri də tədqiq etməli olmuşlar. Bu faktor olmadan Ağaoğlunu və əsərlərini tam dərk etmək mümkünsüzdür. Hər bir yazdığı əsərlə o, elə geniş ictimai-siyasi sferaya daxil

olurdu ki, Şərq və Qərb mütəfəkkirlərinin bu və ya digər mülahizəsinə yox, var olan ən əsas konsepsiyalara münasibətini bildirirdi. Fikrimizcə, "Sərbəst insanlar ölkəsində" əsərinə də məhz bu prizmadan yanaşmaq lazımdır: həm mövzu-problematika, həm də janr-üslub baxımdan. Fikrimizcə, "Sərbəst insanlar ölkəsində" həcminin kiçikliyinə baxmayaraq, konkret bir janra sığmayan əsərdir.

Ə.Ağaoğlunun "Sərbəst insanlar ölkəsində" əsəri ilə bağlı belə bir fikir var ki, "...bu əsər M.F.Axundzadənin "Kəmalüddövlə məktubları"nı xatırladır. Hər iki əsər müəlliflərinin fəlsəfi, siyasi, sosioloji baxışlarının bədii ifadəsi kimi ədəbiyyatşünaslarla yanaşı, filosof və sosioloqların da araşdırmalarının predmeti olmuşdur" [2, s.56]. Filologiya üzrə elmlər doktoru N.Cabbarlının bu fikrində elmi həqiqət var və tamamilə yerinə düşür. Hər şeydən öncə ona görə ki, Ə.Ağaoğlu ədəbi prosesdə ənənə baxımından M.F.Axundzadənin davamçısıdır. Yəni Axundzadənin bu sərt üslublu əsərinin təsiri bu günə qədər davam edir, müəyyən tarixi həqiqəti dərk edib onu bu dildə ifadə etməyin Azərbaycan ədəbiyyatında bir ənənəsi mövcuddur. Bu mənada Ə.Ağaoğlu da XX əsrin 30-cu illərində bu ənənənin təsirindən yumşaq desək, yaxa qurtara bilməzdi. Qeyd edək ki, Şarl dö Monteskyönün "Fars məktubları" meydana çıxdıqdan sonra fransız ədəbiyyatına üslub baxımından damğasını vurmuş və müəyyən ədəbi ənənəyə çevrilmişdi. N.Cabbarlının fikrində başqa bir həqiqət bizi hər iki əsərin təhkiyə manerasına diqqət etməyə sövq edir. Bu əsərlərdə mühakimə, müəyyən fikirlərin çatdırılması nəqletmə aktına çevrilir. Bu isə öz növbəsində nümunənin bədii-fəlsəfi nüvəsinin mahiyyətinə işarə edir. Diqqət edək:

"Üstad, sizde fikir ayrılığı yok mu?

− Hem de ne kadar! Hürriyet olan yerde fikirlerde ayrılık pek tabiidir.

− Fakat bundan dolayı memleketin idaresi güçleşmiyor mu?

− Asla! İdare etmek san'atı zaten fikirlerin ayrı olduğu yerlerde kendisini gösterir. Asıl hüner serbest insanları idare etmektir.Yoksa gözleri, eli, kolu ağzı, kafası bağlı insanları her kes idare eder" [1, s.76].

Bu nümunədə məsələnin məğzi məhz siyasi düşüncə – dövlət, azadlıq, insanlıq kimi fundamental dəyərlərlə əlaqədardır və buna görə də mühakimə fikri, sözü və mahiyyəti çatdırma aktına, yəni bədii-fəlsəfi təhkiyə ritminə çevrilir. Əsərdə yaxın və uzaq tarixə güclü işarələr olsa da, əsas məsələ XX əsr insanını dərindən narahat edən fikrin ifadəsi, onların ümumbəşəri dəyərlər nəzərə alınaraq şərh edilməsidir. Bu səbəbdən "Sərbəst insanlar ölkəsində" əsərini xalis nəsr nümunəsi və xalis traktat hesab etmək doğru olmazdı. Yeri gəlmişkən qeyd edək ki, mərhum alim Ə.Mirəhmədov da əsərin traktat olması ilə bağlı fikirlər irəli sürmüşdür [3, s.201]. Ş.Şamıoğlunun mülahizəsi də demək olar ki, bu yöndədir [4, s.30]. Belə bir faktı qeyd edək: görkəmli yazıçı Çingiz Hüseynovun da "Fətəli fəthi" romanında Axundzadə, onun dövrü, görüşləri, baxış və düşüncəsi haqqında zahirən mühakiməyə bənzəyən hissələr mövcuddur. Bu romanda da Axundzadənin "Kəmalüddövlə məktubları"nın təsiri aşkardır. Amma sadəcə ənənənin ötürdüyü, bədii düşüncəyə ümumilikdə təsir etdiyi dərəcədə! Bütün bu mühakimələrə, fikir yürütmələrinə baxmayaraq "Fətəli fəthi"ni traktat, yaxud pritça adlandırmaq düzgün deyil. "Sərbəst insanlar ölkəsində" əsərində nəsr ovqatı, başqa sözlə, sırf nəsr təhkiyəsi yoxdur, yaxud cüzi dərəcədədir. Bu nümunədə təhkiyə aktına çevrilməmiş təsvirlər var, "Sərbəst insanlar ölkəsində" bədii-fəlsəfi mətnlərə giriş, ön söz mahiyyətini daşıyır.

Ə.Ağaoğlunun elmi və bədii yaradıcılıq sahəsində keçdiyi yol son dərəcə enişli-yoxuşlu və ziddiyyətli olmuşdur, tədqiqatçılar bunu əsasən onu yetişdirən ictimai-siyasi mühitlə izah edirlər. Ə.Ağaoğlu ilk növbədə Azərbaycan mühacirət ədəbiyyatının orijinal obrazıdır. Bu obraz narahatdır, bütün əsərlərində fikrən ölkəsinin keçmişindən gələcəyinə "yürüş" edir, onu həyəcanlandıran mürəkkəb suallara cavab axtarır. Mühacirət ədəbiyyatını ərsəyə gətirən bu kimi parlaq və narahat obrazları müqayisə etsək, deyək ki, Ağaoğlunun "Sərbəst insanlar ölkəsində" nümunəsi ilə Ceyhun Hacıbəylinin "Bir il xəyallarda və bütöv bir ömür" romanının təqdim etdiyi obrazlar Azərbaycan mühacirət ədəbiyyatının daxili fəlsəfəsini, başqa sözlə, mühacirət nəsrinin poetik dünyasını mükəmməl şəkildə ifadə edə bilir.

C.Hacıbəylinin adı çəkilən romanı mühacirət insanının duyğularını ifadə etmək prizmasından Azərbaycan mühacirət ədəbiyyatının bəlkə də ən dolğun və parlaq əsəridir, bu nümunədə həm bədiilik, həm də fəlsəfi mündəricə ayrı-ayrı obrazların bir-birini izləməsi, bədiilik və şərtilik aktına çevrilməsi ilə əyaniləşir. Bu əsərdə Azərbaycan mühacirət ədəbiyyatının bədii düşüncəsi ən yüksək səviyyədə ifadə olunub. Romanda necə deyərlər, "siyasi gedişlər" bədii obrazların hərəkət dinamikası ilə şərtlənir. "Sərbəst insanlar ölkəsində" nümunəsində isə bədiilik, bədii şərtilik aktı məhz Ağaoğlunun siyasi düşüncəsinə söykənir, ona görə də bu nümunə bədii-fəlsəfi mündəricəsi ilə Azərbaycan mühacirət ədəbiyyatının ayrıca araşdırılmalı olan çox parlaq bir faktıdır.

Siyasi koloritli mühakimənin hökmran olduğu mətn tipləri üçün bədiilik sadəcə qəliz, insanların bir qayda olaraq maraq göstərmədikləri məsələləri axıcı şəkildə, bir təhkiyə fonunda ifadə etmək səciyyəvidir. Elə Ağaoğlunun əsərinin başlanğıcında gətirdiyi sitatda da bu fakt aydın şəkildə açıqlanır. "Monteskyö "Kanunların ruhu" adlı eserinde hükumet şekillerinden bahsederken diyor ki: "istibdat – yani şahsi hükumet korkuya, Meşrutiyet – şerefe, Cumhuriyet ise fazilete dayanır" [1, s.1]. Sübut üçün Monteskyönün adı çəkilən əsərindən sitat verək: "Mərhəmət monarxların fərqləndirici keyfiyyətidir. Əsas prinsipi ləyaqət, comərdlik olan respublikada mərhəmət daha az tələb olunur. Qorxunun hökmran olduğu despotik dövlətdə mərhəmətə təsadüfi hallarda rast gəlinir, belə ki, dövlətin yüksək vəzifəli fərdlərinin əməl etməli olduğu ilkin şərt ciddilikdir" [5, s.5].

Ağaoğlu obrazı hər şeydən qabaq "düşüncə", "fikir adamı" ifadəsini ortaya qoyur. Daim axtarışda olan, bir əlində Şərq, o birində Qərb ölkələrinin mədəniyyətinə dair kitablar tutan böyük mütəfəkkiri daha çox Qərblə müqayisədə xeyli geridə qalmış Şərq üçün bir dövlətçilik konsepsiyasını işləyib-hazırlamaq məsələsi narahat edirdi. Başqa bir narahatedici məqam bu qədər zəngin mədəniyyətə malik olan Şərq insanının sivil dünyadan geri qalması, bu zənginlikdən faydalana bilməməsi idi. Böyük bir mədəni irsin heç bir elementi aktual və işlək vəziyyətdə deyildi. Onun ilk gənclik illərində C.Əfqanidən dərs aldığını da unutmaq

olmaz. Ə.Ağaoğlunun ideyalarındakı ziddiyyətli məqamlar da bu ortamdan irəli gəlirdi, ideyalarla, mənbə və məxəzlərlə zəngin olan Şərq Əhməd Ağaoğlunu daim düşündürürdü; bu mülahizələrdəki gərginlik onu məhz janrların sərhədində əsər qələmə almağa vadar edirdi. Diqqət edin: eyni gərginlik Ş.L.Monteskyönü "Fars məktubları" romanını, Axundzadəni "Kəmalüddövlə məktubları" roman-traktatını məhz janrların sərhəd situasiyalarında qələmə almağa sövq etmişdi. Fikrimizcə, Ə.Ağaoğlunun M.F.Axundzadədən sonra "Kəmalüddövlə məktubları" tipli əsər yazması həm də ənənənin, Axundzadənin gələcəyə ötürdüyü mesajın incələnməsi anlamına gəlir. Ağaoğlu məsələn, "Sərbəst insanlar ölkəsində" əsərini niyə, hansı faktorları nəzərə alıb yazmışdı? Bu sualların bir qismini Ağaoğlu özü müqəddimədə şərh və izah etsə də, digər səbəbləri əsərin sistemli yanaşma metodu əsasında incələnməsi əsasında aydınlığa çıxarmaq mümkündür.

Ağaoğlunun "Sərbəst insanlar ölkəsində" əsərinin əsas ruhu azadlıq yanğısıdır, bu yanğıda Azərbaycan Xalq Cümhuriyyətinin fəlsəfəsi, eyni zamanda dünyada insanların hürr yaşamasını şərtləndirən siyasi baxışlar gəzib-dolaşır. Bu mənada əsərin ayrı-ayrı hissələrinin də başlıqları təsadüfi seçilməmişdir, başlıqların özündə belə məsələni bədii formada ifadə etmək niyyəti açıq-aydın duyulmaqdadır. Məsələn, diqqət edin: "Ben bir esir idim, hür olmak istedim." [1, s.3] Əsərin başlanğıcındakı "açığa çıxıb dərin nəfəs aldım" ifadəsi qarşıdan gələn çətinlik və fəlakətlərin sadəcə xəbərçisidir. Mətnin başlanğıcında belə bir şərtilik hökm sürür: azadlığa çıxmış və ona tam qovuşmaq istəyən insan təbii ki, yol ayrıcında qalır və seçim etmək məcburiyyətindədir. "Teküddütle bir kaç adım attım. Kendimi iki yolun ayrımında buldum ve buraya dikilen bir direk üzerinde şu yazıyı okudum:

Sol tarafa giden yol hürriyet yoludur.
Sağ tarafa giden yol kölelik yoludur" [1, s.3].

Yəni köləlikdən yenicə qurtulmuş insan üçün yenə belə bir seçim variantının qoyulması birinci yolun nə qədər iztirablı olduğunu bildirir.

Köləlikdən qurtulmuş insan ondan tam qopduğunu zənn edir və bunun çox çətin bir proses olduğunu anlamır, çünki bu yöndə heç bir təcrübəsi yoxdur. Ağaoğlu belə bir son dərəcə mürəkkəb prosesi ifadə etməyi qarşısına məqsəd qoyur. Həm də istər siyasətçilərin, fikir adamlarının, istərsə də adi oxucuların anladıqları bir dildə. Əsərdə bədii qata ehtiyac məhz burdan irəli gəlir. Əsərin yazılıb nəşr edildiyi dövr üçün köləlikdən qurtulub yol ayrıcına gəlib çatmış insan tipinin təsviri təbii idi, ancaq həmin vəziyyətin belə bir "janr qarışıqlığı" formasında təqdimi yeni və orijinal idi. O dövrün insanına bu suallar verilir:

"(1) Nefsine hakim misin?

(2) Doğruyu sever misin?

(3) Hakikate tahammülün var mı?

(4) İzzeti nefis sahibi misin?" [1, s.4].

Həmin insan göstərilən əraziyə daxil olur, burada çox böyük çətinlik bahasına atdığı hər addım onu köləlikdən bir az da uzaqlaşdırır, beləliklə, məhz bu yolla beynindəki və ruhundakı köləliyin izlərindən xilas olur.

Nəticə. Fikrimizcə, M.F.Axundzadənin adı çəkilən əsərində olduğu kimi Ə.Ağaoğlunun da "Sərbəst insanlar ölkəsində" mətnində bədii təfəkkür faktı müəyyən mənada iştirak edir, ona görə müəyyən mənada ki, əsərin ana məqsədi konkret siyasi düşüncəni, siyasətin təməl prinsiplərini uyar dillə şərh etməkdir, bu məqsəd isə bədii yaradıcılıq arsenalının zənginliklərindən bəhrələnməklə icra edilmişdir. Bu fakt onun janrların sərhədində yerləşməsini şərtləndirmişdir. Belə hallarda şübhəsiz ki, "janr transformasiyası" anlayışına istinad etmək yerinə düşür. Yəni janrlar yalnız özlərinə məxsus "fəzada" fırlanmırlar, onlar zamanla birbirinə nüfuz edir, necə deyərlər, bir-birinin sərhədini "pozurlar". XX əsrin əvvəllərindən bu günə qədər, məsələn "roman" anlayışı dinamik şəkildə dəyişmişdir, elə digər janrlar da transformasiyaya məruz qalmışlar. Ə.Ağaoğlunun "Sərbəst insanlar ölkəsində" əsəri Azərbaycan mühacirət ədəbiyyatının əsas istiqamətlərini çox fərqli bir planda təqdim etməklə bərabər, bu ədəbiyyatın öz inkişafında müəyyən bir mərhələyə yetişdiyini təsdiqləyir. Fikrimizcə, Ə.Ağaoğlunun adıçəkilən əsəri mühacirət ədəbiyyatımızda bədii-fəlsəfi nəsrin ilk örnəyi hesab edilə bilər.

Ancaq bizim fikrimizcə, əsərdə janr qarışıqlığını yaradan başqa bir faktor burada müəllif obrazının, onun niyyət və fikirlərinin bədii mətnin bütün qatlarına sirayət etməsidir, belə olduğu üçün də əsərin bütün ərazisində narahat bir fikir adamının düşüncələri, həm də onun hələ cavabı tapılmamış və gələcəyə ünvanlanmış sualları önəm daşıyır.

Əsərin başlanğıcından sonuna qədər müəllif öz qəhrəmanını ən müxtəlif hadisələrin içindən keçirir, hürr yaşamağın, köləlikdən qurtulub da azadlıq nemətini nuş etməyin son dərəcə ciddi hadisə olduğunu faktlarla, bənzəri olmayan mühakimələrlə şərh edir. Azadlıq insanın ruhuna, xüsusən köləlikdən yenicə qurtulmuş insanın həyatına birdən-birə daxil olub onu büsbütün dəyişdirə bilmir. Mətndə olan faktlar bu baxımdan nümunəvi sayıla bilər. Ustad və pirlərin məsləhətləri, onların izahları bu mənada köləlikdən azadlıq, hürr insanların yaşadığı əraziyə daxil olan insan üçün həm mayak, həm də çaşdırıcı işarələr sayıla bilər. İllər boyu kölə vəziyyətində yaşamış insan öz gücünə zəncirlərini qoparıb, yatdığı zindanın divarını dəlib azadlığa yetişsə də, onun ruhuna və beyninə kök atmış köləlik əlamətləri birdən yox olub getmir. Bunun üçün özü kimi insanların əhatəsində yaşamalı, düşünməli, yaşam tərzində son dərəcə ciddi olmalıdır.

Əsərin janrı ilə bağlı gəldiyimiz nəticə budur: biz bu barədə dəqiq fikir ifadə etmək üçün ədəbi-tarixi gerçəklik faktlarına istinad etməyi üstün sayırıq. Belə ki, Ə.Ağaoğlunun "Sərbəst insanlar ölkəsində" əsəri janr etibarı ilə siyasi-fəlsəfi ağırlıqlı nəsr nümunəsidir. Ədəbi ənənə baxımından izah etməli olsaq, Axundzadənin fəlsəfi-sosioloji ağırlıqlı "Kəmalüddövlə məktubları" traktatından sonra Ağaoğlunun əsərində bədiiliyin üfüqləri genişlənmiş, istənilən mətləbi bədii dillə təqdim etmək tərzi özünü daha artıq dərəcədə və konseptual şəkildə ifadə edə bilmişdir.

İstifadə edilmiş ədəbiyyat:

1. Ağaoğlu Ahmet. Serbest insanlar ülkesinde. İstanbul: Sanayii Nefise Matbaası, 1930, 128 s.

https://psi520.cankaya.edu.tr/uploads/files/Agaoglu%2C%20Serbest%20Insanlar%20Ulkesinde%20%281930%29.pdf

2. Nikpur Cabbarlı. Azərbaycan mühacirət nəsri. Bakı: Elm və Təhsil, 2011, 140 s.

3. Əziz Mirəhmədov. Əhməd bəy Ağaoğlu, Bakı: Ərgünəş, 2014, 264 s.
4. Şahbaz Şamıoğlu. Azərbaycan mühacirət irsi: nəsr və ədəbiyyatşünaslıq. Bakı: Elm və təhsil, 2023, 332 s.
5. Шарль Луи Монтескье. О духе законов. Москва: Мысль, 1999, 274s.
https://www.livelib.ru/author/306763/top-sharl-lui-de-monteskjo

Samira Mammadli

ABOUT THE GENRE OF AHMET AGAOGLU'S WORK "IN THE LAND OF FREE PEOPLE"

Summary

The article examines the genre characteristics of one of the most important works of Azerbaijani emigration prose. It is noted that Ahmet Agaoglu's path in the field of scientific and artistic creativity was extremely ups and downs and contradictory. Researchers of Agaoglu's heritage relate this issue to the environment that raised him. Of course, in the conflicting and heated atmosphere of the time he lived in, Agaoglu first of all tried to deeply study problems such as society and individual, man and freedom, state and society, and adequately reflect them in his works.

"In the Land of Free People" by Ahmet Agaoglu is an important work in terms of defining the philosophical spirit of Azerbaijani emigration literature. Therefore, there is a need to define its genre specificity. There is no other work written in this spirit in Azerbaijani emigration literature. However, when viewed from a wider perspective, the text of the work "In the Land of Free People" is the continuation of the tradition that founded by M.F.Akhundzade and played an important role in solving many issues.

Since the artistic structure of the work includes both artistic and scientific layers of thought, it is impossible to consider it a mere treatise or a purely artistic prose example. These types of works are mostly artistic-philosophical reflections of extremely complex and contradictory questions in that period.

Keywords: Azerbaijani emigration prose, Agaoglu, "Land of Free people", genre, border situation, treatise, novel

Самира Мамедли

О ЖАНРЕ ПРОИЗВЕДЕНИЯ АХМЕДА АГАОГЛУ “В СТРАНЕ СВОБОДНЫХ ЛЮДЕЙ”

Резюме

В представленной статье рассматриваются жанровые особенности одного из самых значительных произведений прозы азербайджанской эмиграции. Отмечается, что путь Ахмеда Агаоглу в области научного и художественного творчества был чрезвычайно взлетным и противоречивым. Исследователи наследия Агаоглу связывают этот вопрос с той средой, которая его воспитала. Конечно, в противоречивой и накаленной атмосфере того времени, в котором он жил, Агаоглу прежде всего старался глубоко изучить такие проблемы, как общество и личность, человек и свобода, государство и общество, и адекватно отразить их в своих произведениях. “В стране свободных людей” Ахмеда Агаоглу – важное произведение с точки зрения определения философского духа азербайджанской эмигрантской литературы. Поэтому возникает необходимость определить его жанровую специфику. Другого произведения, написанного в подобном духе, в азербайджанской эмигрантской литературе нет. Однако при более широком рассмотрении “В стране свободных людей” предстает не в одиночестве, продолжение традиции, заложенной М.Ф. Ахундзаде, сказывается и играет ключевую роль в решении многих важных вопросов с точки зрения проблемы жанра.

Поскольку художественная структура произведения включает в себя как художественный, так и научный пласты мысли, его нельзя считать просто трактатом или образцом чисто художественной прозы. Подобные произведения – это в основном художественно-философское осмысление чрезвычайно сложных и противоречивых вопросов, поставленных перед временем.

Ключевые слова: азербайджанская эмигрантская проза, Ахмед Агаоглу, “Страна свободных людей”, жанр, пограничная ситуация, трактат, роман